**Mətanət Oruc qızı Həsənova (Saraçlı)**
***Bakı Dövlət Universiteti***
***Filologiya fakültəsinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru***
***matanat.saraclı@mail.ru***

*UDC 821.512.162*

## Mirzə Fətəli Axundov dramaturgiyasında obraz

***Xülasə:*** *Məqalədə M.F.Axundov dramaturgiyasında yaradılan obrazların tipologiyasına qısa nəzər salınır. Müxtəlif psixoloji xüsusiyyətləri olan obrazların daşıdığı ideya açıqlanır və hər birinin səciyyəvi cəhətləri göstərilir. Müəllifin yaratdığı tiplər, xarakterlər, onların təhlili də məqalədə yer alır.*
***Açar sözlər:*** *psixoloji, xüsusiyyətlər, təmsilat, obraz, tip, ümumiləşdirmə.*

## Matanet Oruj gizi Hasanova (Sarachli)
## Image in the dramaturgy of Mirza Fatali Akhundov

**Summary:** *The article gives a brief overview of the typology of images created in the dramaturgy of M.F.Akhundov. The idea of images with different psychological features is explained and the characteristics of each are shown. The types, characters created by the author and their analysis are also included in the article.*
***Keywords:*** *psychological, features, representation, image, type, generalization.*

## Матанет Орудж кызы Гасанова (Сарачлы)
## Образ в драматургии Мирзы Фатали Ахундова

***Резюме:*** *В статье дается краткий обзор типологии образов, созданных в драматургии М.Ф.Ахундова. Объясняется идея образов с разными психологическими особенностями и показываются характеристики каждого. Типы, персонажи, созданные автором, и их анализ также включены в статью.*
***Ключевые слова:*** *психологические, особенности, представление, образ, тип, обобщение.*

M.F.Axundov yeni dövr ədəbiyyatımızda və ədəbi-nəzəri fikir tariximizdə zaman keçdikcə daha çox dəyər qazanan sənətkarlardandır. "Təmsilat"a daxil olan ölməz komediyalarında dövrün mənzərəsi ailə-məişət xüsusiyyətləri, sosial-mənəvi vəziyyəti təsvir olunmuş, müxtəlif ictimai təbəqə və zümrələrin dolğun, parlaq, rəngarəng obrazları, tipləri, xarakterləri yaradılmışdır.

Hər bir komediyasında çatdırmaq istədiyi ideyanı və toxunduğu problemləri müəyyən tiplər, xarakterlər vasitəsilə oxuculara çatdırır. Axundzadənin komediyalarının ideya-bədii xüsusiyyətləri məhz bu parlaq xarakterlərlə ifadə





olunur. Bütün komediyalarında onu hansısa komik problemin tədqiqindən çox, problemi doğuran səbəblərin ifşası maraqlandırır.

İlk əsəri "Hekayəti-Molla İmrahimxəlil kimyagər"də "nuxulular"ın timsalında yaradılan dövrün bir çox insanlarının tipik obrazlarına nəzər salaq:

Hacı Kərim insanların etibarından sui-istifadə edən fırıldaqçı zərgərlərin tipik obrazıdır.

Məşədi Cabbar dövrün tipik tacir obrazı olaraq bizi peşəsinin əsas xüsusiyyətləri ilə tanış edir.

Ağa Zaman dəllək olduğu halda həkimliklə məşğul olan qeyri-peşəkar həkimlərin ümumiləşmiş tipidir.

Səfər bəy tipik mülkədar obrazıdır.

Molla Salmanın sənəti qatırçılıq olsa da, dövrün fırıldaqçı mollalarını təmsil edən tipdir.

Bu obrazların daşıdığı əsas ideya ondan ibarətdir ki, hər kəs öz peşəsi ilə ləyaqətlə məşğul olsun.

Bu tipik obrazları ümumiləşdirən amil tamahlarının qurbanı olmalarıdır.

Hacı Nuru obrazı da dövrünün tipik ziyalı obrazıdır. Bu obraz dövrün insanlarının elmə, sənətə olan münasibətini açıb göstərməkdə dramaturqa böyük imkanlar açır:

"Mənim hünərim üçün dəxi ərbabi-zövq və kamal mərifət lazımdır ki, dediyim əşarın qədrini biləlvalər. Zəmani ki, mənim bəxtimdən həmşəhərlilərim də ki sizsiniz, nə kamal var, nə ağıl var, nə beyin var; bu surətdə mənim hünərimdən nə fayda hasil olacaq, mənim şeirim nəyə məsrəfdir."

Müəllif bu obraz vasitəsilə elmə, sənətə qiymət verməyən və bunu bacarmayan insanları tənqid edir. Hacı Nurunun həqiqətini qəbul etməyən nuxulular onu məclisdən qovsa da, o artıq "öz işini" bitirmiş olur.

Hacı Nuru "Ölülər" əsərindəki İsgəndərin sələfidir. Akademik Məmməd Arif hər iki obrazı aydın bir planla çıxış etməməkdə günahlandırır. Hacı Nuru məsləhət verməklə kifayətlənməyib daha dinamik hərəkət edərək Molla İbrahimxəlilin fırıldaqlarını üzə çıxara bilərdi. Axundzadənin komediyalarındakı silsilə obrazların hər birinin xələf-sələf münasibətləri vardır.

Belə ki, ədəbiyyatımızda ilk maarifçi obraz olan Hacı Nurunun xələfi Şahbaz bəy, Molla İbrahimxəlil obrazının xələfi isə Məstəli şahdır.

Müəllif obraz yaradarkən surətlərin mənfi və müsbət xüsusiyyətlərini nəzərə alaraq onları olduğu kimi yaradırdı. Bu da realizmin tələblərindən irəli gəlirdi. Onun yaratdığı hər bir tip eyni zamanda fərdi xarakterdir. Realizmin əsas prinsiplərindən olan tipikləşmə və fərdiləşdirməyə yaratdığı bütün obrazlarda tam riayət olunmuşdur.

Məsələn, Hacı Nuru qaranlıq mühitdə parlayan yeganə ifşaçı surət kimi Çatski, Alsest surətlərini xatırlatsa da (Qriboyedov "Ağıldan bəla", Molyer "Mizantrop") öz fərdi milli keyfiyyətləri vardır.

Avamlıq və cəhalətin ifşasına yönələn ikinci əsər "hekayəti Müsyo Jordan həkimi-nəbatət və dərviş Məstəli şah cadukünü məşhur" komediyasıdır. Bu əsərdə də müəllif ideyaları davam etdirilir. Əsas ifşa obyekti olan dərviş Məstəli şah obrazı psixoloji aspektdən tam dolğunluğu ilə canlandırılmış, onun köməkçi Qulaməli ilə

birləşib avam qadınları aldatması ilə ifşa obyektinə çevrilmişdir. Molla İbrahimxəlillə dərviş Məstəli şah arasında bir çox oxşarlıq var ki, bunlara aşağıdakıları daxil edə bilərik:

1) Hər iki obraz insanların avamlığından istifadə edib onların əllərindən pullarını alırlar. Molla İbrahimxəlilə aldananlar öz tamahlarının qurbanı olurlar. Dərviş Məstəli şahın aldatdığı qadınlara isə müəllifin gülüşü daha yumşaq təsir bağışlayır. Dramaturq onların avamlığına ürək ağrısı ilə yanaşır.

2) Hər iki obrazın yanında onlara kömək edən köməkçiləri vardır (Molla Həmid, Qulaməli).

İkinci əsərdə obrazlar, nisbətən təkamül prosesində görünən Şəhrəbanu, Şərəfnisə, Xanpəri avam qadınları təmsil etsələr də milli mentalitetimizin təmsilçisi kimi rəğbət doğururlar. Nadanlığın qurbanı olan bu obrazların hər biri öz fərdiyyəti ilə fərqlənir.

Hatəmxan ağa Təklə-Muğanlı obasının bəyi kimi ümumiləşdirilmiş obrazdır. Eyni zamanda fərdi xarakterdir. Bütün məsələlərə özünün baxışı, özünün münasibəti vardır. Hətta qadınlardan fərqli olaraq Şahbazın Fransaya getməsinə mane olmaq istəmir.

Müəllif bu obraz vasitəsilə iki mədəniyyəti qarşılaşdırır və hər ikisində olan neqativ xüsusiyyətləri tənqid edir.

Şahbaz bəy yeni keyfiyyətli maarifçi obrazdır və Əziz Mirəhmədovun təbirincə desək "ətirli yazın müjdəsini gətirən qaranquşdur."

Müsyo Jordan obrazı da ilk qərbli obrazı kimi mükəmməl işlənmişdir. Öz milli mənafeyini hər şeydən yüksək tutan Müsyo Jordan qadınlarla, Hatəmxan ağa ilə, Şahbaz bəylə münasibətdə bütün etik qaydalara riayət edir. Eyni zamanda müəllif bu obrazın simasında dəqiq elmlər sahəsində çalışan Qərbi Avropa alimlərinin tipik surətini yaratmışdır.

Ədəbiyyatımızda dram janrının əsasını qoyan "Hekayəti-xırs quldurbasan"da Pərzad, Zalxa, Sona kimi qadın obrazları yaradan Axundzadə ilk dəfə olaraq qadın azadlığı, qarşılıqlı sevgi əsasında ailə qurmaq kimi məsələlərə toxunur. XIX əsr Azərbaycan məişətinin səciyyəvi cəhətlərini əks etdirən bu əsərdə azad sevgi münasibətlərinə əngəl olan maddi bərabərsizlik də tənqid olunmuşdur. Bu əsərdəki Fok müəllifin yaratdığı ikinci qərbli obrazı kimi özünü xarakterizə edə bilir. Qoçaq, ağıllı Bayram obrazı ilə kütbeyin, qorxaq Tarverdi obrazı və onların təzadlı xarakterləri əsərdə dolğunluğu ilə açılır.

"Hekayəti-vəziri xani Lənkəran" komediyasında dövlətdəki idarəetmə üsulu tənqid olunur. Komediyanın əsas tənqid hədəfi vəzir Mirzə Həbibdir. Vəzifə düşkünü olan bu obrazı müəllif kamil tip kimi xarakterizə edə bilmişdir. Xanın yanında daha üstün mövqe tutmaq üçün baldızını ona ərə vermək istəyi, qadınlarına münasibətdə ikiüzlü siyasəti bu fikirləri formalaşdırmağa bizə əsas verir.

Nisə xanım və Şölə xanım kimi ağıllı qadın obrazları yaradıb onları fərdiləşdirən müəllif, hər birinə özünəməxsus dil, nitq fərdiliyi verir.

Bunlar gələcəkdə yaradılacaq ağıllı, tədbirli qadınların sələfidir. Bəzi qısqanclıq və bədgümanlıq kimi keyfiyyətləri istisna olmaqla, Ziba xanımı da belə obrazlara şamil edə bilərik.





Vəzir kimi tənqid obyektinə çevrilən Lənkəran xanı şərq feodal dövlət başçılarının bütün səciyyəvi sifətlərini ümumiləşdirən kamil tipik obrazdır.

Səhnədə özünü ədalətli, ağıllı hesab edən xan müəllifin əsas gülüş və ifşa obyektidir.

Əsərdə Lənkəran xanının gənc varisi Teymur ağa müəllifin müsbət idealını ifadə edir. Əsərin əsas konflikti də onunla xan və vəzir arasında cərəyan edir. Lakin o aşiq kimi dolğun verilsə də, xanlığın varisi kimi zəifdir. Komediyada ilk dəfə olaraq dövləti idarə etmək məsələsi ön plana çəkilir ki, bu da müəllifin komediya yaradıcılığının get-gedə püxtələşdiyini göstərir.

Axundovun digər komediyası "Sərgüzəşti-mərdi xəsis"in qəhrəmanı Hacı Qara dramaturgiyamızda yaradılan ilk xəsis obrazı kimi yadda qalır. Hacı Qara kamil tip, fərdi xarakterdir. Yüz manat zərərdən ötrü quldurluq etməyə razı olur.

Xəsisliyi ucbatından qazancını ailəsinə belə xərcləməyə qıymır. Arvadı ilə dialoqunda bunu aydın görürük:

***Tükəz:*** Ondan ötrü murdarsan ki, öz malını nə özün yeyib-içirsən, nə əyalıva məsrəf edirsən. Sən ölsən, heç olmasa, arvad-uşağın doyunca çörək yeyir.

***Hacı Qara:*** Arvad uşaq zəhrimar yesin.

***Tükəz:*** Sənin evində zəhrimar da tapılmaz. Olsaydı onu bizə qıyıb verməzdin.

Dramaturqun altıncı komediyası "Mürafiə vəkillərinin hekayəti"ndə bir-birilə mübarizə aparan iki qadın obrazının fonunda məhkəmə orqanlarında olan özbaşınalıqlar, rüşvətxorluqlar tənqid olunur. Hacı Qafurun siğə arvadı Zeynəblə bacısı Səkinə xanım arasında mülk davası uzun çək-çevirdən sonra Səkinə xanımın qələbəsi ilə nəticələnir. Qardaşı Hacı Qafurun ölümündən sonra var-dövləti vəsiyyətnamə ilə ona həvalə olunsa da, siğə arvadı Zeynəb məhkəmə iddiası açaraq sərvəti öz əlinə keçirməyə çalışır. Qorxmaz, mübariz, öz hüquqları uğrunda çarpışan bir obraz kimi təsvir olunan Səkinə xanım onu Ağa Həsənə ərə vermək istəyən bibisi Zibeydəyə qarşı çıxaraq: "Yaxşı deyil,bibi. Sənə mən nə zaman izin vermişəm ki, məni Ağa Həsənə verəsən? Mənim bu saatda nə atam var, nə anam, nə qardaşım; özüm öz vəkiliməm."

Köhnə əxlaq tərzinin əsiri olan Zibeydə xanım üçün fərdi və bəşəri səadət rəmzi olan qadın azadlığı anlayışı mövcud deyildir. Onun nəzərində qadın kölədir və öz taleyini həll edə bilməz.

Səkinə xanım müəllifin həyatı boyu reallaşdırmaq istədiyi ictimai məramın, yeni müsbət idealın təmsilçisi, daşıyıcısıdır. Səkinə xanım Axundzadənin sevərək yaratdığı qadın obrazlarının ən mükəmməlidir. O, Pərzad xanımın xələfidir. ("Xırs Quldurbasan"). Hər iki obrazın öz razılığı olmadan ailə məsələsini həll etmək istəyirlər. Səkinə xanım Pərzaddan daha cəsarətlidir.

Müəllifin digər obrazları kimi qadın obrazları da daim inkişafda verilir. Şərəfnisə, Şəhrəbanu, Xanpəri avam idilərsə, Pərzad, Tükəz hüquqsuz, Sona xanım cəsarətli, həm də ağıllı idi. Səkinə əsərdə Ağa Həsən, Ağa Mərdan, Zibeydə, Zeynəb kimi insanlarla mübarizədən çəkinmir və qalib gəlir.

Axundzadənin yaratdığı obrazlar fərqli və rəngarəngdir. Mülkədar, tacir, xan, vəzir, zərgər, şair, qaçaq, vəkil və s. obrazların hər biri öz fərdiliyi ilə seçilir. Onlar əsərdən-əsərə təkmilləşdirilərək, daha da inkişaf etdirilir.

İlk maarifçi obrazı Hacı Nurunun işini sonrakı komediyasında Şahbaz bəy kimi gənclər davam etdirir. Ancaq bu obrazlar kamil olmasalar da, gələcəkdə yaranacaq fəxrəddinlərin, fərhadların, isgəndərlərin ən uğurlu sələfidir.

"Hekayəti-mərdi xəsis" komediyasında Sona xanım öz cəsarəti, igidliyi, sevgisinə sadiqliyi ilə seçilirsə, sonuncu komediyasında Səkinə xanım öz sələfinin işini layiqincə davam etdirərək müxtəlif cəbhələrdə mübarizə aparır və qalib gəlir.

Digər maarifçilər kimi Axundzadə də öz qəhrəmanını müvafiq tipik şəraitə salır, o şəraiti yaradır və tipik şəraitin xarakterə təsirini aydın şəkildə göstərir. Bir sözlə Axundzadə yaratdığı bu obrazlarla maarifçi ağılın intibahını gerçəkləşdirir.

Xalqın acınacaqlı vəziyyətini duyan, lakin əlac edə bilməyən Hacı Nuru məclisdən uzaqlaşır, Molla İbrahimxəlilə heç kim mane olmur, o da qalib görkəmində öz "fəaliyyətini" daha da genişləndirir. Dramaturq mənfiliklərlə dolu mühiti ifşa etmək kimi məsuliyyətli bir vəzifəni oxucuların öz ixtiyarına buraxır.

Molla İbrahimxəlil Hacı Nurudan daha mükəmməl obrazdır. O, insan kimyası üzərində qeyri-adi təcrübə aparmağı bacaran mahir psixoloqdur.

Müəllif yaratdığı kazak, divanbəyi kimi çar məmur obrazları vasitəsilə sətiraltı mənada çox mətləblərə aydınlıq gətirməyə çalışmışdır.

"Xırs Quldurbasan"da divanbəyi ilə kazakın mükaliməsi zamanı kazak Sotnikovun türkçə öyrənmək istədiyi bildirilir.

Divanbəyi isə "kəs səsini, çox lazımdır ki, o öyrənmək istəyir" cavabını verir. [1, s. 85].

Müəllif sətiraltı mənada türkçülüyə, türk dilinə hansı formada qadağa olduğunu çatdırmağa çalışır.

Çar məmurların nitqində ermənilərə olan münasibətlə bizim millətə qarşı fərqli münasibət və davranışları sərgiləyən fikirlər çoxdur.

Fikirlərimizə yekun olaraq qeyd edirik ki, Axundzadənin dramaturgiyasında hər bir obraz müxtəlif baxış bucaqlarından olsa belə, müəllif ideyasının daşıyıcısı kimi çıxış edir.

## ƏDƏBİYYAT

1. *Axundzadə, Mirzə Fətəli. Əsərləri: Üç cilddə. Cild 1. - Bakı: Şərq-Qərb, 2013. - 240 s.*
2. *Həsənova, Mətanət. Nəzəri fikrin işığında. - Bakı, 2019. - 191 s.*
3. *Qarayev, Yaşar. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər. - Bakı: Elm, 2002. - 740 s.*
4. *Qasımzadə, Feyzulla. XIX əsr Azərbaycan ədəbiyyatı. - Bakı: Elm və təhsil, 2017. - 552 s.*